Sabirabad

# Musiqi bayramı

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin şəxsi təşəbbüsü ilə 2007-ci il fevralın 5-dən Azərbaycan dövlət filarmoniyasında start götürən musiqi festivalı indi müvəffəqiyyətlə bölgələrimizdə davam etdirilir. «Leyli və Məcnun» operasının 100 illiyinə həsr olunmuş bayram tədbirlərinin 2008-ci ilin 18 sentyabrına – Şərqdə milli operanın əsasını qoymuş dahi bəstəkar Üzeyir Hacıbəyovun doğum gününədək davam etdirilməsi nəzərdə tutulmuşdur.*

Sabirabadda 3 gün yerli sakinlərin zövqünü oxşayan tədbirin adamlarda doğurduğu dərin təəssürat hələ də dildə-dodaqda dolaşır.

Festivalın birinci günü rayondakı Heydər Əliyev adına Mədəniyyət Sarayı bütün arzulayanları tutmaq iqtidarında deyildi. Salonda iynə atsaydın yerə düşməzdi. Dövlət Rəqs Ansamblı bədii rəhbər xalq artisti Afaq xanım Məlikovanın rəhbərliyi ilə elə ilk andan bütün nəzərləri özünə cəlb etdi. Rəngarəng çıxışlar, maraqlı nömrələr bundan sonra bir-birini əvəzlədi.

İmkan tapıb Mədəniyyət və Turizm Nazirliyi musiqi sektorunun müdiri Fərəh xanım Əliyevaya yanaşır, tədbirlə bağlı fikirlərini bölüşürəm. O, bir neçə gün əvvəl Akademik Opera və Balet Teatrında Afaq xanımın yubileyinin təntənə ilə qeyd olunduğundan, onun çoxsaylı uğurlarından, eləcə də festivalın məramından geniş söhbət açır.

Tədbirin rəsmi hissəsi Sabirabad Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Əlinizam Abbasovun xeyir-duasından sonra açıq elan edilir.

Ü. Hacıbəyovun «Cəngi»si (solist xalq artisti Rüfət Xəlilzadə), «Qarabağ», «Tərəkəmə» (Sevinc Hüseynovanın ifasında), Cavanşir Quliyevin «Məzəli rəqs»i (solist Röya Əliyeva) zalı təlatümə gətirir. Rüfət Xəlilzadə və Tamilla Əliyevanın «Naz eləmə» rəqsi xüsusilə təsirli olur. «Turacı» rəqsi və Eldar Mansurovun «Odlar yurdu» suitası da arası kəsilməyən alqışlarla qarşılanır.

Tədbirin ikinci günü estafeti Dövlət Opera və Balet Teatrının solistləri davam etdirir. Teatrın baş rejissoru Hafiz Quliyevlə görüşürük:

– Bu möhtəşəm bayram respublikanın bütün şəhər və rayonlarında bir ildən artıq müddətdə keçiriləcək. Teatrımız istər Azərbaycan, istərsə də dünya klassiklərinin əsərlərini təqdim edəcək.

Tədbirin musiqili hissəsi xalq artistləri Mənsum İbrahimov və Aygün Bayramovanın «Leyli və Məcnun» operasından ifa etdikləri bir parça ilə başlayır. Onları E.Həşimov (tar) və E.Əhmədov (kaman) müşayiət edirlər.

Ü.Hacıbəyovun «Koroğlu» operasından Koroğlunun ariyasını ifa edən Həsən Enami bəlkə də bilmirdi ki, onun dayandığı yer, oxuduğu səhnə SSRİ xalq artisti Lütfiyar İmanovun doğulduğu evin yeri idi. Görkəmli müğənni həmin səhnədə C.Cahangirovun «Ana» mahnısını ifa edərkən təsirlənərək söyləmişdi: «Bu səhnənin yerində bir vaxt anam beşik başında mənə layla çalıb...»

Sonra tamaşaçılar Həsən Enami və Zemfira İsmayılovanın ifalarında «Arşın mal alan» operettasından Əsgər və Gülçöhrənin ariyalarını, xalq artistləri Aygün Bayramova, Nəzakət Teymurova, əməkdar artistlər Gülyaz Məmmədova, Gülüstan Əliyeva və solist Səbuhi İsayevin ifasında muğam və xalq mahnılarını dinlədilər. Müğənniləri Elçin Haşımov (tar), Elnur Əhmədov (kaman), Kamran Kərimov (nağara), Əliağa Sədiyev (tar), Elşən Mansurov (kaman) və Şirzad Fətəliyev (balaban) professional şəkildə müşayiət etdilər. Operadan parçaları isə fortepianoda konsertmeyster Günay Ağamalıyeva ifa edirdi.

Musiqi festivalının üçüncü günü Filarmoniyanın Xalq Çalğı Alətləri Orkestrinin çıxışı ilə başladı. Orkestrin bədii rəhbəri və baş dirijoru, əməkdar incəsənət xadimi Ağaverdi Paşayevlə söhbət edirik.

– Bu, çox vaxtında irəli sürülmüş təşəbbüsdür. Bu cür görüşlər respublikanın bütün bölgələrində keçiriləcək. Yüksək səviyyədə təşkil olunan festival barədə hörmətli nazirimizə ətraflı məlumat verəcəyik.

Öncə Vasif Adıgözəlovun «Bayram suitası» yer









aldı (konsertmeyster Zülfiyyə Əsədova). Beynəlxalq müsabiqə laureatı Samir Cəfərov Rauf Hacıyevin «Azərbaycan» və Ü.Hacıbəyovun «Sənsiz» romansını ifa etdi. Sonra Respublika müsabiqəsi laureatı Mehri Əsədullayevanın ifasında Hacı Xanməmmədovun kamança üçün konsertinin ikinci hissəsi dinlənildi. Fikrət Əmirovun «Azərbaycan elləri» əsərini ifa edən Opera və Balet Teatrının solisti Səbinə Əsədova tamaşaçılara SSRİ Xalq artisti Firəngiz Əhmədovanı xatırlatdı.

«Arşın mal alan» operattasından Gülçöhrənin ariyasını da Səbinə ifa etdi. Sahib Paşazadə və Çinarə Mütəllimovanın ustalıqla ifa etdikləri «Cahargah»la tədbirə yekun vuruldu.

Musiqi festivalı rayonda böyük əks-səda doğurdu.

***Sabirabad Rayon İdman və Gənclər İdarəsinin rəisi Nadir Quliyev:***

– Rayonda belə tədbir birinci dəfədir ki, keçirilir. Sabirabadlılar bu təşəbbüsü alqışlayır və arzu edirlər ki, bu cür tədbirlər tez-tez keçirilsin.

***Sabirabad Sosial İqtisad Kollecinin direktoru Mahir Tarıverdiyev:***

– Müəllim və tələbələrimiz tədbirdən yüksək zövq aldılar. Hər şey yüksək səviyyədə təşkil olunmuşdur.

***Sabirabad Rayon Təhsil Şöbəsinin müdiri Mələykə Həsənova:***

– Böyük Üzeyir dühası bu gün yetişən nəslin kulturoloji inkişafında danılmaz rol oynayır.

**Mahir ƏBİLOV,**
**«Mədəni-maarif»in zona müxbiri**

